**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MÜNAQİŞƏLƏR, DİALOQ, KONSENSUS: SOSİAL-FƏLSƏFİ TƏHLİL

İxtisas: 7207.01 – Sosial fəlsəfə

Elm sahəsi: Fəlsəfə

İddiaçı: **Vüsalə Loğman qızı Gülmalıyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2025**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun "Sosial fəlsəfə və ekoloji problemlər" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbərlər: fəlsəfə elmləri doktoru, professor
**Zeynəddin Camal oğlu Hacıyev**

fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Şölət Əlövsət oğlu Zeynalov**

Rəsmi opponentlər: fəlsəfə elmləri doktoru, professor
**Əbülhəsən Fərhad oğlu Abbasov**

fəlsəfə elmləri doktoru, professor
**Tahirə Bəkir qızı Allahyarova**

fəlsəfə üzrə fəlsəfə doktoru
**Məmmədtağı Həsən oğlu Rzayev**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.33 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: ____________ fəlsəfə elmləri doktoru, professor
**İlham Ramiz oğlu Məmmədzadə**

Dissertasiya şurasının elmi katibi: ____________ fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
**Sevinc Arif qızı Həsənova**

Elmi seminarın sədri: ____________ fəlsəfə elmləri doktoru, professor
**Rəna Rza qızı Mirzəzadə**

## DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Bəşəriyyət və sivilizasiya yarandığı gündən insan mütəmadi olaraq tarixin çətin sınaqlarından keçmişdir. Məhz bu səbəbdən fərqli seçimləri istənilən dövrdə birmənalı olmadığı kimi, onların nəticələri də fərqli gerçəkliklərin yaranmasına səbəb olmuşdur. Arasıkəsilməz sınaq və sonsuz seçimlərlə müşayiət olunan dinamik proseslər bütövlükdə cəmiyyəti formalaşdırmışdır. İnsanın bilavasitə yaradıcısı olduğu dəyərlər sistemi bütün zamanlarda asayiş, tarazlıq və nizamı təmin etdiyi kimi, bəzən ziddiyyətlər və qarşıdurmalar da doğurmuşdur. Tarixi şərtlərdən asılı olaraq cəmiyyət daima inkişaf və geriləmələrlə üzləşmişdir. İnsan isə tarixin təkamül prosesində bir-birini əvəz edən sülh və müharibələr şəraitində yaşamağı öyrənmişdir. Bu fəlsəfi qanunauyğunluq kəsb etdiyi aktuallığını daima qoruyub saxlamaqdadır. Bəşərin bilavasitə məziyyətindən irəli gələn əbədi dəyişkənlik, onun bütün fəaliyyətində də ardıcıl olaraq təkrarlanmışdır. İnsan keçmişdən indiyədək gah sülh, gah da müharibə yolunu tutmuşdur. İki qaçılmaz zərurətin vəhdətində özü də həyatda qalmağa çalışmış və mövcudluğunu sürdürə bilmişdir.

Təbiət insanı daima həyat uğrunda mübarizəyə məcbur etdiyindən, münaqişə insanın varlığı ilə bərabər həmişə gündəmdə olmuş və bu aktuallığını bilavasitə onunla birgə qoruyub saxlamışdır. İnsana münasibətdə mövcudluq və mübarizə bir növ fəlsəfi mütənasiblik təşkil etmişdir. Bu mənada münaqişə cəmiyyətin formalaşması ilə yanaşı meydana çıxmış, bütün tarixi dövrlərdə onun ayrılmaz tərkib hissəsi və əsas xüsusiyyətlərindən biri kimi aktuallıq qazanmışdır. Fəlsəfi baxımdan münaqişə, həm də ümumilikdə bəşəriyyətin əsas inkişaf amillərindən biri kimi çıxış etmişdir. Dünya heç bir zaman statik şəkildə mövcud ola bilmədiyi kimi, onun ən ali varlığı, mərkəzi hərəkətverici qüvvəsi olan insan və onun yaratdığı münasibətlər sistemi də bu mühüm dinamik xüsusiyyətdən xali olmamışdır.

İnsanın əsas insani xüsusiyyətlərindən biri olan dil, onun tərkib hissəsi nitq, daha ümumi mənada qarşı tərəflə əlaqə qurmaq məharəti

kimi dialoq da insanla paralel təkamül etmişdir. Bilavasitə əlaqənin əsas elementi qismində ünsiyyətə və ya fəlsəfi kontekstdə dialoq sənətinə sahib olan bəşəriyyət, məhz bu qabiliyyəti sayəsində birbaşa olaraq özündən qaynaqlanan, baiskar olduğu münaqişələri həll etmək bacarığına da malik olmuşdur. Tarix boyu ünsiyyət və onun müxtəlif təzahürlərini təkmilləşdirərək, sistemli formalara salan insan bununla dialoq mədəniyyətini formalaşdırmışdır. Tərəflərin fikir mübadiləsi mütəşəkkil dialoq nəticəsində bir çox hallarda cəmiyyətdə baş verən sonsuz münaqişələrin qarşısı alına bilinmişdir. Bu isə ünsiyyətin əsas fəlsəfi formalarından biri olan dialoqun münaqişələrə qarşı səmərəliliyini dəfələrlə sübut etmişdir. Bəşəriyyət zaman, eləcə də məkan müstəvisində dialoqdan fərqli münaqişələrin həllində əsas vasitə kimi istifadə etməyi öyrənmiş və onu münaqişələrlə mübarizə silahına çevirmişdir.

Bu təkamül prosesində fəlsəfənin də mühüm problemlərindən sayılan dialoq, münaqişələrin həllində aparıcı rol oynayaraq aktuallıq qazanmışdır. Bilavasitə ünsiyyətə əsaslanan, mərhələli şəkildə inkişaf edən, istənilən problemin, eləcə də münaqişənin müzakirəsində qarşı tərəfin eşidildiyi dialoq insanlığın sonsuz münaqişələr şəraitində tükənməsinin qarşısını almaq mümkün olmuşdur. Onun mövcudluğu və ya aktuallığını qoruyub saxlamasında mühüm rol oynamışdır. Nizamlayıcı bir amil kimi insan xislətinə xas dialoq münaqişənin həll edilməsi baxımından daima aktual olmuşdur. Kəsb etdiyi mahiyyətindən irəli gələrək dialoq münaqişəyə qarşı müdafiə üsuluna çevrilmişdir. Deməli, dialoq mütəmadi olaraq cəmiyyətlərdə baş qaldıran münaqişələrin təsirini azaldan və onların destruktiv nəticələrini tənzimləyən əsas amillərdən biri kimi çıxış etmişdir.

Aktuallığı mübarizə-münaqişə və ünsiyyət-dialoq növbələşməsilə təmin edilən insana xas ən üstün məziyyət əxlaqdır. Cəmiyyətin yüksək dəyərlər sistemi əsasında formalaşan əxlaq fəlsəfi mahiyyəti etibarilə bəşərin tənzimləyicisi olmaqla yanaşı, onun fiziki varlığının qorunmasında da mühüm rol oynamışdır. Əxlaq ilə idarə olunmağı öyrənən insan münaqişələrdən qaçmaq və ünsiyyətə meyl etmək mədəniyyətini formalaşdırmışdır. Onun sayəsində ilk öncə özünə çərçivələr çızmaq, daha sonra isə ətrafa münasibətdə güzəştə getməyi öyrənmişdir. Mövcudluq və ya varlığını ən üstün fəzilət olan əxlaq əsasında qoruyub saxlamışdır. Əxlaq insanın təbii fiziki halının onun

əqli üzərində hakim olmasının qarşısını almağa kömək etmiş və insanın vəhşi təbiəti ilə mübarizəsində ən güclü vasitə olmuşdur. O, bəşərin daxili nizamlayıcısı kimi onu üzləşdiyi çətinliklər və fəlakətlərdən xilas etmişdir. Əxlaq bəşərə ədalət, xeyirxahlıq, bağışlamaq, barışmaq, güzəştə getmək, əməkdaşlıq etmək kimi üstün keyfiyyətlər aşılamışdır. Əxlaq kontekstində aktuallıq qazanan dərin fəlsəfi problemlərdən biri də konsensusdur. Konsensus insanın əxlaqi dəyərləri rəhbər tutaraq dialoqlar qurmaq və münaqişələri həll etmək cəhdlərindən biri kimi meydana çıxmışdır.

Mütəşəkkil bir sistem kimi xarakterizə edilə bilən cəmiyyətdə sistemyaradıcı elementlər və ya konsensuslar olmadan davamlı inkişafın təmin edilməsi çətindir. Münaqişə dinamik bir proses kimi bütövlükdə inkişafa təkan versə də, yalnız münaqişə ilə inkişaf mümkünsüzdür. Dialoq isə bilavasitə müzakirə mövzusu olmadan aktual deyil. Bu şərtlərdən irəli gələrək münaqişənin dialoq vasitəsilə idarə edilməsi və konsensusla tamamlanması, cəmiyyətin davamlı inkişafına şərait yaradan əsas mexanizmlərdən biri kimi çıxış edir. Münaqişələrdən keçən və arasıkəsilməz olaraq nizamlama prosesləri ilə müşayiət olunan inkişafı düzgün yönəldərək onu ötəri deyil, aktual edən əsas amil məhz konsensusdur. Müəyyən mənada fərqli əxlaqi dəyərlərin özünəməxsus təzahür forması olan konsensus, münaqişə mərhələsinin tamamlanması və onun tərəflərini mümkün qədər qane edə biləcək nəticələrin dialoqlar vasitəsilə əldə edilməsi yoludur. Dialoqun danışıqların müəyyən bir mərhələsində münaqişəni tənzimləyə bilməsi konsensusu aktual edir. Konsensus insan fitrətindən doğan münaqişələrin bilavasitə onun özü vasitəsilə cilovlanmasının mümkünlüyünün sübutudur. Çoxsaylı münaqişələrlə müşayiət olunan müasir dünyada sülhün əldə edilməsi də, faktiki olaraq müxtəlif sahələrdə formalaşan davamlı konsensuslardan asılıdır.

İstənilən konsensusu təşviq edərək aktuallaşdıran amil münaqişə, onun davamlı olmasını təmin edən isə mütəmadi dialoqlardır. Tarix boyu fasiləsiz şəkildə baş verən münaqişə və konsensus növbələşməsində əsas sistemyaradıcı element kimi dialoq çıxış etmişdir. İnsanlararası ünsiyyətin mühüm bir forması olan dialoq vasitəsilə bəşər övladı mahiyyətcə bir-birinə əks olan digər iki fenomen yəni, münaqişə və konsensus arasında kommunikativ əlaqə qurmağı

öyrənmişdir. Bu mənada, hər üç müstəqil sosial-fəlsəfi problem ayrı-ayrılıqda aktuallıq kəsb etməklə yanaşı, vəhdətdə tədqiq edilməsi baxımından da xüsusi əhəmiyyətə malikdir. Münaqişə, dialoq və konsensus kimi mahiyyətcə geniş fəlsəfi problemlərin ümumi vəhdətdə təhlili üçün onların hər birinin problematikasına daxil olan əsas fəlsəfi məqamların, eləcə də ortaq xüsusiyyətlərin nəzərə alınması vacibdir.

Dissertasiyada üç fəlsəfi problemin hər birinin ayrılıqda və ümumi məntiq əsasında bir-birilə əlaqəli şəkildə tədqiqi müasir dövrün ümumi mənzərəsinin təsviri baxımından da aktuallıq kəsb edir. Hazırda dünyada təlatümlü sosial-siyasi proseslərin, ziddiyyətlərin artdığını nəzərə aldıqda, bəlli problemlərin qarşılıqlı olaraq araşdırılması xüsusi aktuallığı ilə seçilir. Bilavasitə tədqiqatın mövzusunu təşkil edən fəlsəfi problemlərin Azərbaycanın 44 günlük Vətən müharibəsi və ondan sonra formalaşan yeni reallıqlar kontekstində nəzərdən keçirilməsi də aktuallığı ilə səciyyələnir. Belə ki, Azərbaycan 30 il kağız üzərində qalan münaqişəni, beynəlxalq hüquq normaları və BMT Təhlükəsizlik Şurasının qətnamələri çərçivəsində hərbi-siyasi yolla həll etdi. Postmüharibə dövründə isə dialoq prosesi və konsensus təklifləri ön plana çıxaraq aktuallaşdı. Ermənistanla birbaşa danışıqların aparılması və sülh müqaviləsinin imzalanması istiqamətində təşəbbüslər hələ də davam etdirilməkdədir. Münaqişədən sonrakı dövrdə əldə ediləcək konsensus davamlı inkişafın, regional sabitliyin və əməkdaşlığın təmin edilməsi üçün mühüm faktor kimi çıxış edəcəkdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci il 9 aprel tarixində ADA Universitetində "Yeni dünya nizamına doğru" mövzusunda keçirilən beynəlxalq forumda vurğuladığı kimi, "*Azərbaycan və Ermənistan arasında sülh sazişi imzalandıqdan sonra regionda əməkdaşlığın başlanmasına heç bir maneə qalmayacaq və bu, Cənubi Qafqazın inteqrasiyası üçün real imkanlar yaradacaqdır*".[1]

Müasir dünyada sosial, siyasi və iqtisadi sahələrdə baş verən köklü dəyişikliklər nəticəsində əksər fəlsəfi problemlərin bilinən sabit mənaları ciddi transformasiyalara uğramışdır. Münaqişə, dialoq və konsensus probleminin hər biri günümüzün dəyişən reallıqlarında ənənəvi mahiyyətlərindən bir qədər uzaqlaşaraq yeni mənalar

---

[1] https://president.az/az/articles/view/68514 (09.04.2025).

qazanmışdır. Qeyd edilən proseslər nəticəsində dissertasiyanın tədqiqat mövzusu olan problemlərin sosial-fəlsəfi mahiyyətlərində müəyyən dəyişikliklər baş vermişdir. Dinamik sosial sistemlər kimi təsnif edilməsi mümkün olan müasir cəmiyyətlərdə iqtisadiyyat əsas sistemyaradıcı aktorlardan biri kimi çıxış etdiyindən, münaqişə bəzən konstruktiv xarakter daşıya bilir və inkişafa təkan verən amilə çevrilir. Konsensus isə müəyyən hallarda bitirdiyi münaqişənin özü qədər təhlükəli olan staqnasiya və ya durğunluq hallarına səbəb olur. Bu kimi dəyişikliklər kontekstində dialoq da çox vaxt gözləntiləri doğrultmaya bilir. Bu mənada, dissertasiyanın əsas mövzusunu təşkil edən hər üç problemin müasir dünyanın dəyişən reallıqları fonunda qazandıqları yeni sosial-fəlsəfi məzmun əsasında tədqiqi xüsusi aktuallıq kəsb edir.

Artıq XX əsrdən etibarən R.Darendorf,[2] L.Kozer,[3] K.Bouldinq[4] kimi sosial münaqişə nəzəriyyəsi (Social conflict theory) nümayəndələrinin tədqiqatlarında münaqişə məsələsinə sosial-fəlsəfi yanaşmanın köklü şəkildə dəyişdiyini müşahidə etmək olur. Kapitalizmin bərqərar olması ilə, onun əsas daxili aktorlarından biri olan münaqişə amili artıq elmi ictimaiyyətdə müsbət məna yükü qazanmışdır. Eyni zamanda münaqişə problemi sosial və siyasi sistemləri də böyük ölçüdə formalaşdıran bazar iqtisadiyyatının ayrılmaz sistemyaradıcı elementi kimi təhlil və tədqiq olunmağa başlanmışdır. Bu amil münaqişə ilə sıx bağlı olan dialoq və konsensus anlayışlarının da ənənəvi fəlsəfi mahiyyətində müəyyən dəyişikliklərə səbəb olmuşdur. Dissertasiyanın aktuallığını şərtləndirən başlıca amillərdən biri də tədqiqata cəlb olunan hər üç sosial-fəlsəfi problemin elmi ictimaiyyətdə şablon yanaşmalar çərçivəsində deyil, müasir dünyanın dəyişən reallıqları kontekstində araşdırılmasıdır. Tədqiqatı aktual edən digər məqamları ümumi şəkildə aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Münaqişə probleminə neqativ faktor deyil, fəlsəfi kontekstdə

---

[2] Dahrendorf, R. Class and Class Conflict in Industrial Society / R. Dahrendorf. Stanford: Stanford University Press, – 1956. – 358 p.

[3] Coser, L.A. The Functions of Social Conflict / A.L. Coser. New York: The Free Press, – 1956. – 196 p.

[4] Boulding, K.E. Three faces of power / K.E. Boulding. Newbury Park, California: SAGE Publications, lnc., – 1989. – 261 p.

günümüzün dinamik proseslərinin davamı kimi baxmaq, müasir dövrdə çoxşaxəli xarakterə malik və mahiyyətcə dərinləşən münaqişələrə münasibətdə aktual elmi yanaşmaları təşviq edir.

2. Müasir dövrün mürəkkəb sosial, siyasi, iqtisadi çağırışlarından irəli gələrək, dialoq anlayışının fərqli kontekstlərdə (gələcəyin layihəsini qurmaq, güzəşt mədəniyyəti formalaşdırmaq, sonsuz suallara uyğun cavab axtarmaq və s.) fəlsəfi təhlili aktuallıq qazanır.

3. Konsensusun sabitliyini və dayanıqlılığını təmin edən bir sıra müasir sosial faktorların fəlsəfi təhlili, konsensusdan daha geniş məna yükünə malik sülhə keçidin izahını aktual edir.

Münaqişə, dialoq və konsensus XIX əsrin sonlarından etibarən xüsusi sosial-fəlsəfi problemlər qismində bir çox filosoflar tərəfindən geniş şəkildə araşdırılmışdır. Sosial münaqişələrin sinfi mübarizənin nəticəsi olması K.Marks,[5] münaqişələr və cəmiyyətdəki bütün sosial proseslərin bir-birilə qarşılıqlı əlaqədə olması M.Veber,[6] münaqişənin neqativ faktor kimi sosial sistemin sabitliyini pozan amil olması kimi problemlər T.Parsons [7] tərəfindən tədqiq edilmişdir. G.Zimmel, [8] R.Darendorf, L.Kozer, K.Boulding kimi sosial münaqişə nəzəriyyəsinin nümayəndələri münaqişə problemini cəmiyyətin əsas inkişaf faktoru kimi tədqiq etmişlər. B.Krozier,[9] E.Roys,[10] O.J.Bartos, P.Vehr,[11] J.S.Nay, D.Uelç[12] kimi tədqiqatçılar sosial münaqişələrin

---

[5] Маркс, К. «Капитал» Карла Маркса / К. Маркс; составитель Юлиан Борхардт; [перевод с немецкого С. Алексеева]. – Москва: Эксмо, – 2021. – 512 с.

[6] Weber, M. Political Writings / M. Weber. Edited by Piter Lassman and Ronald Speirs. Cambridge: Cambridge University Press, – 2003. – 422 p.

[7] Parsons, T. The Social system. With a New Preface by Bryan S.Turner / T. Parsons. London: Routledge Taylor & Francis Group, – 2005. – 448 p.

[8] Зиммель, Г. Избранное. Том 1. Философия культуры / Г. Зиммель. – Москва: Юрист, – 1996. – 671 с.; Зиммель, Г. Избранное. Том 2. Созерцание жизни / Г. Зиммель. – Москва: Юрист, – 1996. – 607 с.

[9] Crozier, B. A theory of conflict / B. Crozier. London: Hamish Hamilton. – 1974. – 245 p.

[10] Royce, E. Classical Social Theory and Modern Society: Marx, Durkheim, Weber / E.Royce. Lanham, Maryland: Rowman & Littlefield, – 2015. – 357 p.

[11] Bartos, O.J. Using conflict theory / J.O. Bartos, P. Wehr. – Cambridge: Cambridge University Press, – 2002. – 231 p.

[12] Nye, J. S.Jr. // Understanding global conflict and cooperation: An introduction to theory and history . J. S. Nye, Jr., A.D. Welch. – Boston: Pearson. – 2017. – 449 p.

günümüzdə cəmiyyətin inkişafında oynadığı həlledici rol və başlıca hərəkətverici faktor olması mövzularını araşdırmışlar.

Münaqişələrin cəmiyyətdə sosial balansın pozulması nəticəsində baş verməsi və onların həllində dialoqun vacibliyi məsələsi P.Vallensten[13] tərəfindən təhlil edilmişdir. Destruktiv münasibətləri transformasiya etmək üçün davamlı dialoq və davamlı sülh konsepsiyaları H.H.Saunders[14] tərəfindən irəli sürülmüşdür. Ho-Von Yeonq, [15] münaqişənin idarə edilməsi və sülh prosesinin təşkili sahəsində araşdırmalar aparmışdır. Sülhə dair araşdırmalar, münaqişə, dialoq və konsensus problemləri arasındakı fəlsəfi bağlılıq, sülhün əldə edilməsinin fəlsəfi əsasları Y.Qaltunq[16] tərəfindən tədqiq edilmişdir. Münaqişə və sülh, müasir dünyada "sülh mədəniyyəti" konsepsiyası, davamlı sülh və münaqişələri transformasiya edərək sülh quruculuğu

---

[13] Wallensteen, P. Understanding conflict resolution: War, peace and the global system / P. Wallensteen. – London: SAGE Publications Ltd., – 2002. – 337 p.

[14] Saunders, H.H. A public peace process: Sustained dialogue to transform racial and ethnic conflicts / H.H. Saunders. – New York: Palgrave, – 1999. – 343 p.; Saunders, H.H. Dialogue as a process for transforming relationships // H.H. Saunders. – The SAGE handbook of conflict resolution. Edited by Jacob Bercovitch, Victor Kremenyuk, and I.William Zartman. – London: SAGE Publications Ltd, – 2009. – pp. 376-391.; Saunders, H.H. Sustained dialogue in conflicts: Transformation and change / H.H. Saunders. – New York: Palgrave Macmillan, – 2011. – 298 p.

[15] Jeong, H.W. Conflict Management and Resolution. An introduction / H.W. Jeong. – New York: Routledge, – 2010. – 256 p.; Jeong, H.W. Peace and Conflict Studies An introduction / H.W. Jeong. – New York: Routledge, – 2017. – 266 p.

[16] Galtung, J. Crafting peace: On the psychology of the transcend approach // J.Galtung., F. Tschudi. – Searching for peace the road to transcend. By Johan Galtung and Carl G. Jacobsen. – London: Pluto Press, – 2000. – pp. 206-227.; Galtung, J. 40 Conflicts, 40 Perspectives // J. Galtung. – Searching for peace the road to transcend. By Johan Galtung and Carl G. Jacobsen. – London: Pluto Press, – 2000. – pp. 122-190.; Galtung, J. Leaving the twentieth century, entering the twenty-first: some basic conflict formations // J. Galtung. – Searching for peace the road to transcend. By Johan Galtung and Carl G. Jacobsen. – London: Pluto Press. – 2000. – pp. 51-65.; Galtung, J. Pax Pacifica: Terrorism, the pacific hemisphere, globalization, peace studies / J. Galtung. – London: Pluto Press, – 2005. – 187 p.; Galtung, J. Peace by peaceful conflict transformation – the transcend approach // J. Galtung. – Handbook of Peace and Conflict Studies Edited by Charles Webel and Johan Galtung. – New York: – Routedge, – 2007. – pp. 14-32.; Galtung, J. Peace by peaceful means: Peace and conflict, development and civilization / J. Galtung. – Oslo: International Peace Research Institute, – 1996. – 289 p.

məsələləri, sülhün psixoloji aspektlərini K.Uelç və E.Beyker, [17] J.V.Frank, [18] K.F.Brand-Jakobsen, [19] A.Kabezudo, M.Haavelsrud, [20] Ç.Vebel[21] araşdırmışdır.

Münaqişənin həllinin siyasi aspektləri M.Briqq, [22] ədalət və münaqişənin fəlsəfi əsasları M.Doyç,[23] münaqişə və dialoq arasında müqayisəli təhlil D.Yankeloviç, [24] münaqişənin yaradıcı mahiyyəti P.J.Karnevale, [25] etnik-dini münaqişələr S.A.Kadayıfçı-Orellana, [26]

---

[17] Welch, C. Analytical Conflict Transformation and Teaching for Peace in Sociology // C. Welch, B. Elisabeth. – Conflict Resolution and Peace Education. Transformations across Disciplines. Edited by Candice C. Carter. – New York: Palgrave Macmillan, – 2010. – pp. 33-61.

[18] Frank, J.W. Nonprofits Advancing Public Dialogue about a "Culture of Peace" // J.W. Frank. – Conflict Resolution and Peace Education. Transformations across Disciplines. Edited by Candice C. Carter. – New York: Palgrave Macmillan, – 2010. – pp. 63-95.

[19] Brand-Jacobsen, K.F. Beyond mediation: towards more holistic approaches to peacebuilding and peace actor empowerment // K.F. Brand-Jacobsen, G.J. Carl. – Searching for peace the road to transcend. By Johan Galtung and Carl G. Jacobsen. – London: Pluto Press, – 2000, – pp. 231-267.

[20] Cabezudo, A. Rethinking peace education // A. Cabezudo, M. Haavelsrud. – Handbook of Peace and Conflict Studies Edited by Charles Webel and Johan Galtung. – New York: – Routedge, – 2007. – pp. 279-296.

[21] Webel, C. Toward a philosophy and metapsychology of peace // C. Webel. – Handbook of Peace and Conflict Studies Edited by Charles Webel and Johan Galtung. – New York: Routedge, – 2007. – pp.3-13.

[22] Brigg, M. The new politics of conflict resolution: Responding to difference / M.Brigg. – New York: Palgrave Macmillan, – 2008. – 224 p.

[23] Deutsch, M. Justice and Conflict // M. Deutsch. – The handbook of conflict resolution: Theory and practice. Editors Morton Deutsch, Peter T. Coleman, Eric C. Marcus. Second Edition. – San Francisco: Jossey-Bass, – 2006. – pp. 43-67.

[24] Yankelovich, D. Profit with honor: The new stage of market capitalism / D. Yankelovich. – New Haven and London: Yale University Press, – 2006. – 204 p.; Yankelovich, D. The Magic of Dialogue: Transforming Conflict Into Cooperation / D. Yankelovich. – New York: Touchstone, – 2001. – 341 p.

[25] Carnevale, P.J. Creativity in the Outcomes of Conflict // P.J. Carnevale. – The handbook of conflict resolution: Theory and practice. Editors Morton Deutsch, Peter T.Coleman, Eric C.Marcus. Second Edition. – San Francisco: Jossey-Bass, – 2006. – pp. 414-435.

[26] Kadayifci-Orellana, S.A. Ethno-religious conflicts: Exploring the role of religion in conflict resolution // S.A. Kadayifci-Orellana. – The SAGE handbook of conflict resolution. Edited by Jacob Bercovitch, Victor Kremenyuk, and I.William Zartman. – London: SAGE Publications Ltd, – 2009. – pp.264-284.

B.Moiks,[27] mədəniyyətlərin dialoqu V.S.Stepin,[28] sivilizasiyaların dialoqu A.A.Mişuçkov,[29] B.Kuzik və Y.Yakovets[30] tərəfindən öyrənilmişdir. Etnik zəmində baş verən müharibələr, sosial münaqişələr, iqtisadi kataklizmlər, dinlərarası dialoq, sülh və qarşılıqlı anlaşma məsələləri (Balkanlar nümunəsində) D.Susnjiç,[31] İ.Çvitkoviç,[32] L.Mitroviç,[33] N.Duqandjiya,[34] A.Kopilovic[35] tərəfindən

---

[27] Moix, B. Matters of faith: Religion, conflict, and conflict resolution // B. Moix. – The handbook of conflict resolution: Theory and practice. Editors Morton Deutsch, Peter T.Coleman, Eric C.Marcus. Second Edition. – San Francisco: Jossey-Bass, – 2006. – pp. 582-601.

[28] Степин, В.С. Диалог культур и поиск новых ценностей // В.С. Степин. – Философия в диалоге культур: Материалы Всемирного дня философии. – Москва: Прогресс-Традиция, – 2010. – с.76-84.

[29] Мишучков, А.А. Диалог цивилизаций: традиционные ценности в условиях глобализации / А.А. Мишучков. – Оренбург: ООО ИПК «Университет», – 2017. – 520 с.

[30] Кузык, Б.Н. Цивилизации: теория, история, диалог, будущее: [в 6 томах] / Б.Н. Кузык, Ю.В. Яковец. Теория и история цивилизаций. – Москва: Институт экономических стратегий, – т.1. – 2006. – 768 с.; Кузык, Б.Н. Цивилизации: теория, история, диалог, будущее: [в 6 томах] / Б.Н. Кузык, Ю.В. Яковец. // Будущее цивилизаций и геоцивилизационные измерения. – Москва: Институт экономических стратегий, – т.2. – 2006. – 627 с.; Кузык, Б.Н. Цивилизации: теория, история, диалог, будущее [в 6 томах] / Б.Н. Кузык, Ю.В. Яковец. // Цивилизации: прошлое и будущее. – Москва: Институт экономических стратегий, – т.5: – 2008. – 576 с.

[31] Susnjic, D. The meaning and significance of dialogue // D. Susnjic. – Religious dialogue in the Balkans: The drama of understanding. Edited by Milan Vukomanović and Marinko Vučinić. Belgrade: Belgrade Open School, – 2005. – pp.11-19.

[32] Cvitkovic, I. Inter-religious relations in a multicultural society // I. Cvitkovic. – Religious dialogue in the Balkans: The drama of understanding. Edited by Milan Vukomanović and Marinko Vučinić. Belgrade: Belgrade Open School, – 2005. – pp. 29-41.

[33] Mitrovic, L. Dialogue and convergence of Islam and Christianity in prostor the Balkans as a precondition for development of the culture of peace, cooperation and integration among people // L. Mitrovic. – Islam at the Balkans in the Past, Today and in the Future. Edited by: Dragoljub B. Đorđević, Dragan Todorović and Ljubiša Mitrović. Niš: Yugoslav Society for the Scientific Study of Religion, – 2007. – pp 15-20.

[34] Dugandžija, N. On the prospects of inter-religious and inter-ethnic dialogue: What about minorities? // N. Dugandžija. – Religious dialogue in the Balkans: The drama

araşdırılmışdır.

Konfliktologiya haqqında Q.İ.Kozırev,[36] A.Q.Zdravomıslov,[37] A.L.Ançupov, A.N.Şipilov,[38] N.N.Vasiliev,[39] T.N.Kilmaşkina,[40] V.P.Şeynov,[41] V.A.Svetlov,[42] A.K.Zaitsev,[43] N.İ.Leonov[44] və digər mütəxəssislərin tədqiqat və monoqrafiyaları vardır.

Konsensusun kəsb etdiyi mahiyyətin fəlsəfi təhlili N.Resşer,[45] ünsiyyət və münaqişə problemi R.M.Krauss, E.Morsella,[46] konsensus

---

of understanding. Edited by Milan Vukomanović and Marinko Vučinić. Belgrade: Belgrade Open School, –2005. – pp.61-80.

[35] Kopilovic, A. Theology of ecumenism as a joint path // A. Kopilovic. – Religious dialogue in the Balkans: The drama of understanding. Edited by Milan Vukomanović and Marinko Vučinić. Belgrade: Belgrade Open School, – 2005. – pp.91-108.

[36] Козырев, Г.И. Политическая конфликтология / Г.И. Козырев. – Москва: ИД «ФОРУМ»: ИНФРА-М, – 2008. – 432 с.

[37] Здравомыслов, А.Г. Поле социологии в современном мире / А.Г. Здравомыслов; под общ. ред. Н.И. Лапина; науч. коммент. к твор. биогр. авт. Н.И. Лапина, В.А. Ядова, О.Н. Яницкого, В.Г. Николаева, Н.Е. Покровского. – Москва: Логос, – 2010. – 408 с.

[38] Анцупов, А.Я. Конфликтология / А.Я Анцупов, А.И. Шипилов. – Москва: ЮНИТИ, – 2000. – 551 с.

[39] Васильев, Н.Н. Тренинг преодоления конфликтов / Н.Н. Васильев. – Санкт-Петербург: Речь, – 2007. – 174 с.

[40] Кильмашкина, Т.Н. Конфликтология. Социальные конфликты / Т.Н. Кильмашкина. – 2-е изд., перераб. и доп. – Москва : ЮНИТИ-ДАНА, – 2015, – 288 с.

[41] Шейнов, В.П. Управление конфликтами / В.П. Шейнов. Санкт-Петербург: «Питер», – 2014. – 433 с.

[42] Светлов, В.А. Введение в конфликтологию / В.А. Светлов. – Москва: Флинта. – 2015. – 520 с.

[43] Зайцев, А.К. Социальный конфликт / А.К. Зайцев. – Москва: Academia, – 2001, – 464 с.

[44] Леонов, Н.И. Конфликтология / Н.И. Леонов. – Воронеж: Издательство НПО «МОДЭК». – 2006. – 232 с.

[45] Rescher, N. Pluralism: Against the demand for consensus / N. Rescher. – Oxford: Clarendon Press, – 1993. – 217 p.

[46] Krauss, R.M. Communication and Conflict // R.M. Krauss, M. Ezequiel. – The handbook of conflict resolution: Theory and practice. Editors Morton Deutsch, Peter T. Coleman, Eric C. Marcus. Second Edition. – San Francisco: Jossey-Bass, – 2006. – pp. 144-157.

və kompromis arasında müqayisəli təhlil M.V.Fadeykov,[47] dinlərarası konsensus A.F.March, [48] konsensusun düzgün təməlləndirilməsinin sosial-fəlsəfi şərtləri K.Dey,[49] münaqişə və konsensusun idarə edilməsi M.A.Roberto, [50] əməkdaşlıq qurulmaq, konsensus formalaşdırmaq və düzgün qərarlar qəbul etmək məsələlərinin təhlili D.Straus, [51] sosial problemlərin həllində konsensusun önəmi T.P.d'Estre,[52] qruplar daxili münasibətlərdə konsensusun əhəmiyyəti S.Qalam, S.Moscoviçi, [53] qlobal miqyaslı konsensusların önəmi məsələləri N.Çomski [54] tərəfindən araşdırılmışdır.

Bilavasitə münaqişə, dialoq və konsensus problemləri, qeyd edilən problemlərin əxlaqi kontekstdə tədqiqi, mədəniyyətlərin və sivilizasiyaların dialoqu, qloballaşmanın sosial-fəlsəfi mahiyyəti, qlobal böhran və sosial çağırışların fəlsəfi həll yolları, sosial ziddiyyətlər və münaqişələrin sosial-fəlsəfi təhlili, Şərq və Qərb sivilizasiyaları arasındakı qarşılıqlı əlaqələr, müxtəlif din və fərqli irqlər arasında qarşılıqlı hörmət və etimadın möhkəmləndirilməsi məsələləri, siyasi münaqişələrin nəzəri aspektləri və həlli texnologiyalarının tədqiqi kimi

---

[47] Фадейков, М.В. Ненасильственная концепция власти: Подчинение как результат консенсуса и компромисса // М.В. Фадейков. – Национальные интересы. – 2008. – N 4. с.33-38.

[48] March, A.F. Islam and liberal citizenship: The search for an overlapping consensus. / A.F. March. – Oxford: Oxford University Press, – 2009. – 346 p.

[49] Day, C. Consensus Design: Socially inclusive process. / C. Day, R. Parnell. – Burlington: Architectural Press, – 2003. – 241 p.

[50] Roberto, M.A. Why Great Leaders Don't Take Yes for an Answer: Managing for Conflict and Consensus / A.M. Roberto. – New Jersey: Wharton School Publishing, – 2005. – 304 s.

[51] Straus, D. How to make collaboration work: Powerful ways to build consensus, solve problems, and make decisions / D. Straus. – San Francisco: Berrett-Koehler Publishers, Inc. – 2002. – 245 p.

[52] D'Estrée, T.P. Problem-solving approaches // T.P. D'Estrée. – The SAGE handbook of conflict resolution. Edited by Jacob Bercovitch, Victor Kremenyuk, and I.William Zartman. – London: SAGE Publications Ltd, – 2009. – pp.143-171.

[53] Galam, S. Towards a theory of collective phenomena: Consensus and attitude changes in groups // S. Galam, S. Moscovici. – European Journal of Social Psychology, – 1991. Vol. 21, – pp. 49-74.

[54] Chomsky, N. Profit over People: Neoliberalism and Global Order / N. Chomsky. – New York, Toronto, London: Seven Stories Press, – 1999. – 167 p.

məsələlər İ.R.Məmmədzadə, [55] Z.Hacıyev, Q.Abbasova, [56] R.Aslanova, [57] Ə.Abbasov, [58] A.Mustafayev, [59] F.Qurbanov, [60] R.Mirzəzadə, [61] Z.Ağayeva, [62] K.Bünyadzadə, [63] F.İsmayılov, [64] S.Xəlilov, [65] Ş.Zeynalov, [66] Ü.Şəfiyev, [67] S.Hüseynov, [68] H.Qaraşov,

---

[55] Məmmədzadə, İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Tamamlanmış və yenidən işlənmiş ikinci nəşri / İ. Məmmədzadə. – Bakı: Elm və təhsil, – 2019. – 200 s.; Məmmədzadə, İ. Heydər Əliyev və İlham Əliyev: güclü dövlət, qələbənin fəlsəfəsi, Böyük Qayıdış / İ. Məmmədzadə, S. Həsənov. – Bakı: Elm və Təhsil, – 2023, – 268 s.; Məmmədzadə, İ. Qloballaşma və müasirləşmə şəraitində fəlsəfənin aktuallığı haqqında / İ. Məmmədzadə. – Bakı: Təknur, – 2009. – 220 s.; Мамед-заде, И. О некоторых проблемах культурно-исторической эпистемологии // И. Мамед-заде. – Культура диалога культур в глобализирующемся мире. Коллективная монография: научные редакторы Файдуллин, Ф.С., Мамедзаде, И.Р., Меликов, И.М., Гезалов, А.А. Москва: Канон +РООИ «Реабилитация», – 2022. – 520 с.

[56] Hacıyev, Z. Sosial fəlsəfə / Z. Hacıyev, Q. Abbasova. – Bakı: Ayna Mətbu Evi, – 2011. – 507 s.

[57] Aslanova, R. Müasir dövlət və dövlətşünaslıq elmi / R. Aslanova. – Bakı: Azərnəşr, – 2011. – 440 s.

[58] Abbasov, Ə. Geosiyasi və sosial fəlsəfə: ədalətli nizam və tərəqqi naminə / Ə. Abbasov. – Bakı: "Zərdabi LTD" MMC, – 2017. – 284 s.

[59] Mustafayev, A. Fəlsəfədə ziddiyyətlər və münaqişələr problemi. / A. Mustafayev. – Bakı: Nafta-Press, – 2000. – 57 s.

[60] Qurbanov, F. Heydər Əliyev və yeni liderlik: fəlsəfi-elmi təhlil / F. Qurbanov. – Bakı: Elm və təhsil, – 2023. – 324 s.

[61] Mirzəzadə, R. Multikulturalizm siyasəti: din və gender dialoqunda / R. Mirzəzadə. – Bakı: Təknur, – 2012. – 160 s.

[62] Ağayeva, Z. Mənəvi dəyərlər və sosial-siyasi gercəklik / Z. Ağayeva. – Bakı: Elm, – 2014. – 186 s.

[63] Bünyatzadə, K. Şərq və Qərb: ilahi vəhdətdən keçən özünüdərk / K. Bünyatzadə. – Bakı: Nurlan, – 2006. – 242 s.

[64] İsmayılov, F. Bəşəri problemlər / F. İsmayılov. – Bakı: Turan evi, – 2010. – 390 s.

[65] Xəlilov, S. Sivilizasiyalararası dialoq / S. Xəlilov. – Bakı: Adiloğlu nəşriyyatı, – 2009. – 256 s.

[66] Zeynalov, Ş. Dialoq fəlsəfəsi / Ş. Zeynalov. – Bakı: Avropa nəşriyyatı, – 2017. – 304 s.; Zeynalov, Ş. Dialoq mədəniyyəti və müasirlik / Ş. Zeynalov. – Bakı: Avropa nəşriyyatı, – 2020. – 330 s.; Zeynalov, Ş. Sivilizasiyalararası münasibətlər: problemlər və perspektivlər / Ş. Zeynalov. – Bakı: Oğuz Eli nəşriyyatı, – 2014. – 240 s.

[67] Şəfiyev, Ü. Konfliktologiya. Siyasi-sosioloji təhlil / Ü. Şəfiyev. – Bakı: Adiloğlu nəşriyyatı, – 2002. – 182 s.

Z.Şabanov, [69] A.Şirinov, [70] Ş.Musayeva, [71] E.Mirbəşiroğlu, [72] H.Dayızadə, Q.Əliyev, [73] A.Abbasbəyli, P.Darabadi, Ə.İbrahimov, [74] Ə.Tağıyev, [75] M.Əhmədoğlu, [76] N.Məmmədli, [77] E.Mehdiyev, [78] E.Əsədov, [79] A.Hacıyeva, [80] Y.Rüstəmov [81] və başqaları tərəfindən araşdırılmışdır.

**Tədqiqatın obyekti və predmeti**. Tədqiqat işinin obyekti münaqişə, dialoq və konsensus problemlərinin öyrənilməsidir. Tədqiqatın predmetini isə üç problemin hər birinin fəlsəfi aspektdə tədqiqi, bilvasitə kəsb etdiyi başlıca sosial-fəlsəfi mahiyyətin təyin edilməsi, tədqiq edilən bu problemlər arasında məna etibarı ilə ümumi bağlantı qurumağa xidmət edən məqamlar və keçidlərin təhlili təşkil edir.

---

[68] Hüseynov, S. Heydər Əliyev və İlham Əliyevin dövlət-din münasibətlərinin tənzimlənməsində rolu / S.Y. Hüseynov. – Bakı: Tuna, QSC mətbəəsi, – 2023. – 277 s.

[69] Qaraşov, H. Sosial münaqişələrin həllində sosial tərəfdaşlıq amili / H. Qaraşov, Z. Şabanov. – Bakı: Füyuzat, – 2025. – 336 s.

[70] Şirinov, A. Sosial fəlsəfə və sosial gercəklik / A. Şirinov. – Bakı: Qanun – 2008. – 340 s.; Şirinov, A. Sosial zaman və sosial məkan / A. Şirinov. – Bakı, – 2012. – 319 s.

[71] Musayeva, Ş. Dəyərlər və vətəndaş cəmiyyəti: bəzi etik aspektlərin təhlili / Ş. Musayeva. – Bakı: Elm və təhsil, – 2013. – 176 s.

[72] Mirbəşiroğlu, E. Siyasi münaqişələr: mahiyyəti, quruluşu, həlli / E. Mirbəşiroğlu. – Bakı:Elm, – 2009. – 524 s.

[73] Əliyev, Q. Konfliktologiyaya giriş / Q. Əliyev, H. Dayızadə. – Bakı: Təbib, –1998. – 121 s.

[74] Abbasbəyli, A. Konfliktologiya / A. Abbasbəyli, P.Q. Darabadi, Ə.K. İbrahimov, – Bakı: Bakı Universitetinin nəşriyyatı, – 2006. –286 s.

[75] Tağıyev, Ə. İnsan və millət fəlsəfəsi (ideyalar və reallıqlar) / Ə. Tağıyev. – Bakı: Avropa nəşriyyatı, – 2018. – 120 s.

[76] Əhmədoğlu, M. Qloballaşma dövründə konsensus nəzəriyyələrinin mahiyyəti / M. Əhmədoğlu. – Bakı: Adiloğlu, – 2003. – 137 s.

[77] Məmmədli, N. Multikulturalizm: panaseya yoxsa alternativ / N. Məmmədli. – Bakı, – 2016. – 189 s.

[78] Mehdiyev, E. Münaqişələrin həllində üçüncü tərəfin iştirakı / E. Mehdiyev. – Bakı: Elm, – 2000. – 75 s.

[79] Əsədov, E. Qloballaşma şəraitində müharibə və sülh problemi / E. Əsədov. – Bakı: Elm nəşriyyatı, – 2014. – 220 s.

[80] Hacıyeva, A. Mədəni-tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti. / A. Hacıyeva. – Bakı,: Adiloğlu nəşriyyatı, – 2004, – 168 s.

[81] Rüstəmov, Y. Tarix-vahid və ardıcıl təkamül prosesi kimi (F.Fukuyama) / Y. Rüstəmov. – Bakı: Nurlar Nəşriyyat-poliqrafiya mərkəzi, – 2015. – 112 s.

**Tədqiqatın məqsədi və vəzifələri**. Məqsəd münaqişə, dialoq və konsensus problemlərinin sosial-fəlsəfi cəhətdən tədqiqi, onların hər birini təşviq edən sosial, siyasi, iqtisadi və mənəvi amillərin fəlsəfi təhlili, tədqiqat kontekstində bəlli problemləri vahid şəkildə əlaqələndirməyə kömək edən ümumi məntiqin təyin edilməsindən ibarətdir.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün tədqiqat işində aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- müasir dövrdə sosial fəlsəfənin aktual mövzularından olan münaqişə, dialoq və konsensusu bilavasitə şərtləndirən problemlər müstəvisindən çıxış edərək, onların hər birini ayrılıqda təhlil etmək;
- münaqişə, dialoq və konsensus problemlərinin sosial-fəlsəfi təhlili zamanı anlayışların daşıdıqları ənənəvi mənalar ilə yanaşı, günümüzün reallıqlarında qazandıqları yeni və fərqli məna çalarlarını araşdırmaq;
- münaqişə probleminin sosial-fəlsəfi ədəbiyyatda (əsasən postsovet məkanı) çox zaman neqativ səciyyə daşıyan mənasından daha çox, bu problemin fəlsəfi mahiyyətini açaraq, ümumilikdə müasir cəmiyyətlərin inkişafında zəruri amil olmasını göstərmək;
- sosial münaqişə nəzəriyyəsinin əsas nümayəndələri (R.Darendorf, L.Kozer, K.Bouldinq) tərəfindən çoxsaylı sosial münaqişələrin cəmiyyətin davamlı inkişafının əsas göstəricilərindən olması yanaşmasındakı fəlsəfi qanunauyğunluğu araşdırmaq;
- günümüzün dinamik mahiyyətli dəyişkən reallıqları və müasir sosial çağırışları kontekstində aktuallıq qazanan sosial münaqişələrin ümumi sosial-fəlsəfi təsnifatını göstərərək təhlil etmək;
- çoxşaxəli və interdissiplinar olması ilə səciyyələnən dialoq probleminin sosial-fəlsəfi mahiyyətini açaraq, onun müasir iqtisadi, siyasi və sosial sahələrdə müşahidə olunan münaqişələrin həlli və tənzimlənməsində geniş imkanlara malik olmasını müəyyən etmək;
- müasir dünyada mədəniyyətlərarası münasibətlərin qurulması, onlar arasında davamlı və qarşılıqlı əlaqənin təmin edilməsində dialoqların rolunu sosial-fəlsəfi müstəvidə təhlil etmək;
- istənilən platformada (siyasi, iqtisadi və dini və s.) aparılan dialoqun başlıca hədəfi qismində konsensus probleminin sosial-fəlsəfi mahiyyətini araşdırmaq;
- münaqişə və dialoq dualizminin törəməsi kimi konsensusun

daha üst mərhələsi olan dayanıqlı və davamlı sülhün sosial-fəlsəfi mahiyyətini konsensus məntiqi müstəvisində ayırd etmək;

**Tədqiqat metodları**. Tədqiqat işində münaqişə, dialoq və konsensus problemlərinin bilvasitə müasir dövrdə kəsb etdikləri sosial-fəlsəfi mahiyyətlər təhlil edilir. Tədqiqat boyunca hər bir problemin baş vermə səbəbləri, inkişaf xətti, əsas hədəfləri və başlıca nəticələri kimi məqamlar təyin edilir. Araşdırılan mövzunun ümumi kompozisiyası çərçivəsində bir-birini tamamlayan üç problem arasında fəlsəfi əlaqə qurulur. Münaqişə, dialoq və konsensusun cəmiyyətdəki sosial, siyasi, iqtisadi və mənəvi amillər ilə əlaqəsi göstərilir. Dissertasiya işində əsasən fəlsəfi-nəzəri tədqiqat metodlarından istifadə olunmuşdur. Münaqişə, dialoq və konsensusun fəlsəfi mahiyyətilə yanaşı, onlar arasında bağlantını müəyyənləşdirmək üçün müqayisəli təhlil metodundan istifadə edilir. Eləcə də, tədqiqatın tələb olunan yerlərində tarixi, sosial, siyasi, müəyyən məqamlarda isə iqtisadi müstəvidə analogiya metodundan da istifadə edilmişdir. Dissertasiyada qarşılaşdırma, ümumiləşdirmə və hipotetik metodlara da müraciət olunmuşdur. Tədqiqat işinin metodologiyası bütövlükdə mövzunun əsas məzmununu əhatə edir.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

- İnsanın qarşılaşdığı ən qədim sosial problemlərdən bir olan münaqişə tarixən bütün cəmiyyətlərdə meydana çıxan və mütəmadi olaraq təkrarlanan əbədi fəlsəfi qanunuyğunluqdur.

- Sözün hərfi deyil, sırf fəlsəfi mənasında başa düşüldükdə münaqişə cəmiyyətin sosial, siyasi və iqtisadi inkişafına təkan verən başlıca sistemyaradıcı elementlərdən biridir.

- Münaqişə probleminin bilavasitə sosial münaqişələr nəzəriyyəsi kontekstində fəlsəfi təhlili ona dialektik qanunlar əsasında inkişaf edən sosial proses kimi baxmağı zəruri edir.

- Mürəkkəb sosial sistem olan müasir cəmiyyətlərdə bir qayda olaraq qırılma nöqtələrində baş verən çoxsaylı sosial münaqişələr təsadüf deyil, bilavasitə zərurət məntiqinə bağlıdır.

- Dialoq sosial münaqişələrdən xali olmayan müasir cəmiyyətlərdə nizam, harmoniya və davamlı inkişafın bərqərar olmasında əsas şərtlərdən biridir.

- Dialoq bilavasitə komunikativlik ilə səciyyələnən sosial-fəlsəfi

fenomen olmasından irəli gələrək, fərdlərdən başlayıb cəmiyyətə, daha geniş mənada sivilizasiya və mədəniyyət müstəvisinə sirayət edə bilir.

- Müasir sosial mühitin əsaslı inşası və sosial çağırışların tənzimlənməsində vacib elementlərdən biri kimi dialoq günümüzdə cəmiyyətlərin əsas hədəfi olan konsensusun təmin edilməsi faktoru kimi çıxış edir.
- Sosial-fəlsəfi problem qismində konsensus, seçim imkanlarının daha çox və seçimlər zamanı rasional şərtlərin gözlənildiyi situasiyalarda daha səmərəli olur.
- İstənilən konsensusun nəticəsi bilavasitə sosial münaqişənin həllinə yönələn dialoq, prosesin gedişi və irəli sürülən şərtlərin əsaslılığı ilə düz mütənasiblik təşkil edir.
- Müasir dünyanın başlıca hədəfi olunan sülh və onun davamlılığı cəmiyyətlərin bütün sferalarında əldə edilən çoxsaylı sosial konsensuslardan asılıdır.

**Tədqiqatın elmi yeniliyi**:

- Tədqiqat işində münaqişə, dialoq və konsensus problemləri kəsb etdikləri ənənəvi məna ilə yanaşı, müasir dövrün sosial çağırışları kontekstində qazandığı yeni və fərqli məna çalarları müstəvisində sosial-fəlsəfi təhlil edilir.
- Müasir cəmiyyətlərdə baş verməsi qaçılmaz olan münaqişələrin çoxalması və dərinləşməsi ilə paralel onları həll etmək və ya tənzimləmək iqtidarında olan dialoq platformalarının da müvafiq qaydada artması müəyyən edilir.
- Sosial münaqişələrə qarşı effektiv mübarizə üsulu olan dialoqların, həm də ölkələrin inkişaf əmsalını təyin edən müasir qanunauyğunluqlardan biri olması sosial-fəlsəfi kontekstdə müəyyənləşdirilir.
- Ümumilikdə qlobal dünyanın inkişaf dialektikası antitezis kimi çıxış edən sosial münaqişələr, onlara qarşı əsaslı tezis qismində böyük önəmə sahib dialoqlar və bu ikisinin sintezi olaraq konsensus problemi fərqli baxış bucağı əsasında sosial-fəlsəfi aspektdə təhlil edilir.
- Kəsb etdiyi məna yükü sülhdən kiçik olmasına baxmayaraq, davamlı və qalıcı sülhün inşasında cəmiyyətin bütün sahələrində əldə edilən sosial konsensusların effektivliyi sosial-fəlsəfi müstəvidə tədqiq edilir.

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti**. Münaqişələr, dialoq və konsensus mahiyyəti etibarı ilə interdissiplinar problemlər olması və fərqli elm sahələrinin tədqiqat obyektləri kimi çıxış etməsi ilə səciyyələnirlər. Bu problemlər sosial fəlsəfədən başqa bir sıra digər elmlərin, xüsusilə də siyasət və iqtisadiyyat sahəsində aparılan tədqiqatların da əsas mövzularındandır. Üç problemin bilavasitə sosial-fəlsəfi kontekstdə təhlilinə əsaslanan "Münaqişələr, dialoq, konsensus: sosial-fəlsəfi təhlil" adlı tədqiqat işinin əsas elmi nəticələri ümumi fəlsəfə, sosial fəlsəfə, sosiologiya, konfliktologiya, sosial iş, mədəniyyətşünaslıq, dinşünaslıq, siyasi, iqtisadi elmlərin müəyyən bölmələri və bu kimi digər sahələrdə aparılan tədqiqatlarda nəzəri-metodoloji mənbə kimi istifadə edilə bilər. Ümumilikdə dissertasiya fəlsəfə və sosiologiya üzrə müvafiq ixtisaslı mütəxəssislərin hazırlanmasında faydalı ola bilər. Sosial elmlərin tədris olunduğu müxtəlif universitetlərin elmi-praktiki fəaliyyətində tədris materialı kimi istifadə edilə bilər. Dissertasiyanın əsas elmi nəticələri münaqişə, dialoq və konsensus problemləri üzrə aparılacaq növbəti tədqiqatlar üçün informativ elmi mənbə kimi faydalı ola bilər. Eləcə də sosial fəlsəfə və onun əsas tədqiqat mövzularından olan münaqişə, dialoq və konsensus haqqında daha geniş biliklər əldə etmək istəyən oxucu auditoriyası üçün informativ mənbə kimi faydalı olar.

**Dissertasiya işinin aprobasiyası**. Dissertasiya işinin əsas elmi nəticələri ilə bağlı 8 elmi məqalə (2 xaricdə olmaqla) nəşr edilmişdir. Tədqiq edilən mövzunun başlıca müddəaları 13 respublika və beynəlxalq (3 xaricdə) səviyyəli konfranslarda məruzə edilmiş və konfrans materialları şəklində dərc edilmişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilat**: Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun, Sosial fəlsəfə və ekoloji problemlər şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**: Dissertasiya işi giriş, üç fəsil, doqquz yarımfəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir. Giriş-21828 işarə, I fəsil-84025 işarə, II fəsil-78017 işarə, III fəsil-64785 işarə, Nəticə-14354 işarədir. Ədəbiyyat siyahısı daxil olmadan ümumi işarə sayı 264194 işarədən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın "Giriş" hissəsində mövzunun aktuallığı, işlənmə dərəcəsi, tədqiqatın obyekt və predmeti, məqsəd və vəzifələri, elmi yeniliyi, nəzəri-metodoloji əsasları, elmi-nəzəri və praktiki əhəmiyyəti öyrənilmişdir.

Dissertasiyanın birinci fəsli "**Sosial fəlsəfədə münaqişələr problemi**" adlanır. Bu fəsil üç yarımfəsildən ibarətdir. "**Münaqişə fenomeninin fəlsəfi təhlili**" adlanan birinci yarımfəsildə qeyd olunur ki, münaqişə bəşərin əbədi xüsusiyyəti olmaqla bərabər, elə onun öz əsəri olan cəmiyyətin mahiyyətində olması qaçılmazdır. Bu məntiqə əsaslansaq münaqişəni ancaq neqativ bir hal kimi dəyərləndirmək fəlsəfi baxımdan doğru deyil. Birmənalı fenomen olmayan münaqişənin yaxşı və ya pis kimi əxlaqi kateqoriyalar əsasında dəyərləndirilməsi qeyri-mümkündür. Münaqişə əbədi olaraq bəşərə xas hal olduğundan tam qanunuyğun bir prosesdir. P.Vallenstin yazır ki, "*münaqişə istənilən cəmiyyətdə mövcud olan adi hadisədir və normallıqdan kənar hal deyil*".[82]

Fəlsəfi mənada, münaqişə zərurət və təsadüf qanunauyğunluğunda zərurət müstəvisində gerçəkləşən hadisədir. Bu səbəbdən öz qanunları əsasında baş verən münaqişə təsadüfi deyil, daima zəruri olaraq törəyən fenomendir. Münaqişə öncəki şərtlər əsasında formalaşan zəncirvari proses və proseslərin nəticəsi olduğundan onun təsadüfdən törəmə ehtimalı yoxdur. "*Münaqişələrin... qarşısını almaq mümkün olmasa da, şiddət miqyasına çatana qədər idarə etmək... olar*". [83] Münaqişələrin təhlükəli həddə çatmasının qarşısını almağın ən səmərəli üsulu cəmiyyətin davamlı dinamik inkişafıdır. Bu formalı inkişaf mütəmadi olaraq meydana çıxan münaqişələrin gücünü neytrallaşdırır. Cəmiyyətdə uzun müddət davam edən statik vəziyyət isə zamanla sosial narazılıqların dərinləşməsinə

---

[82] Wallensteen, P. Understanding conflict resolution: War, peace and the global system / P.Wallensteen. – London: SAGE Publications Ltd., – 2002. – 337 p, –s.72.

[83] Dobinson, K. Model of Peacefulness: Rethinking Peace and Conflict in Norway // K. Dobinson. Keeping the peace: Conflict resolution and peaceful societies around the world. Edited by Graham Kemp and Douglas P. Fry. – New York: Routledge. – 2004. – pp.121-135, – s.131.

səbəb ola bilər. Bu çox vaxt idarə olunması mümkünsüz münaqişələri təşviq etməklə bərabər, onlara qarşı daha əsaslı müqavimətin təşkilinə də mane olur. Münaqişə bütün hallarda sosial münasibətlər müstəvisində baş verən bir prosesdir. Münaqişənin mahiyyətinə fəlsəfi anlamda monizm yox, dualizm xasdır.

Günümüzdə fəlsəfi təhlili aktuallıq qazanan münaqişə növlərindən biri də kibermünaqişələrdir (cyber conflict). Müasir informasiya texnologiyaları dövründə və onların həyatın bütün sahələrinə sirayət etməsi nəticəsində insanların virtual münaqişələrdən kənarda qalması demək olar ki, mümkünsüzdür. Virtual münaqişələr, sosial gerçəkliklə kiber reallıq arasındakı sərhədlərin getdikcə daha az seçildiyi bir dövrdə meydana çıxır. Xüsusilə, sosial şəbəkələr üzərindən baş verən qarşıdurmalar cəmiyyətin gündəmində sürətlə yer almaqdadır. Bu tip münaqişələr çox vaxt geniş kütlələrə təsir edə və böyük sosial dəyişikliklərə səbəb ola bilir. Kibermünaqişələr artıq müasir virtual münaqişələrin daha təhlükəli və mürəkkəb forması kimi meydana çıxır. Bu tip münaqişələr, klassik münaqişələrdən fərqli olaraq, zaman və məkanın konkretliyini pozur. Tərəfləri isə bəzən məxfi olur. Kibermünaqişələr yalnız informasiya texnologiyalarının məhsulu deyil, həm də texnologiyadan istifadə edən insanların davranışları, qərarları, qarşılıqlı təsirləri nəticəsində meydana çıxır. Virtual münaqişələrdən fərqli olaraq, kibermünaqişələr təkcə sosial deyil, həm də qlobal səviyyədə əhəmiyyətə malikdir. Onlar həm fiziki, həm də ideoloji sahələrdə yeni mübarizə formaları formalaşdırır. "*Rəqəmsal mühitdə baş verən kibermünaqişələrin..., təsirləri həm milli, həm də qlobal səviyyədə əhəmiyyət kəsb edir*".[84]

Birinci fəslin ikinci yarımfəsli "**Sosial münaqişə nəzəriyyəsi**" adlanır. Bu yarımfəsildə qeyd olunur ki, fəlsəfi cəhətdən sosial münaqişələr mahiyyətcə neqativ və ya pozitiv məzmunlu olmasından asılı olmadan, ümumilikdə sosial dinamikadan da ayrılmazdır. Tam şəkildə ona inteqrasiya olmuş vəziyyətdədir. Cəmiyyətdən kənar yox, bilavasitə onun ayrılmaz üzvi tərkib hissəsidir. L.Kozerə görə, "*törəyən münaqişə törədiyi sistemə hər zaman əks olmur. Münaqişə çox vaxt sistemi*

[84] Ghernaouti, S. Forensic Sciences. Cyberpower, Crime, Conflict and Security in Cyberspace / S. Ghernaouti. – EPFL Press, – 2013. – 446 p, – s.146.

*qorumaq üçün zəruridir*".[85] Sosial sistem qaçılmaz olaraq dekonstruksiya tələb etdikdə və ya cəmiyyət dəyişikliklər üçün kifayət qədər yetişdikdə sosial münaqişələr tam qanunauyğun olaraq baş qaldırmış olur. Sosial münaqişələr birbaşa olaraq cəmiyyətin tələbləri, sosial çağırışları əsasında baş verir. Önəmli olan məsələ, cəmiyyətdəki sosial münaqişələri təşviq edən səbəbləri vaxtındaca düzgün nizama salmaqdır.

R.Darendorfa görə, "*sosial qarşıdurmalar uzunmüddətli olduqda onların qarşısının müvəffəqiyyətli olaraq alınması mümkün deyil*".[86] Sosial münaqişələrin daimi və nizamlı olaraq idarə edilməsi bu mənada özünü doğrultmuş olur. Münaqişə uğurlu həll olunmadıqda da ona nəzarət və problemin daima diqqətdə saxlanılması vacibdir. Bu məntiqdən çıxış etdikdə münaqişələrin müvəqqəti həlli kimi status-kvo konsensusun əldə olunmasında uğurlu vasitə deyil. Onun əldə olunması daha əsaslı diplomatik səylər, davamlı dialoqlar və paradoksal səslənsə də, münaqişənin öz şiddətinin artırılması vasitəsilə həll edilə bilər.

Uzun illər davam edən status-kvonun reallıqda özünü doğrultmadığı və heç vaxt doğrultmaq iqtidarında olmadığı faktı, Azərbaycanın 44 günlük Vətən müharibəsi ilə bir daha açıq şəkildə təsdiqləndi. Bu müharibə yalnız ərazi bütövlüyünün bərpası deyil, eyni zamanda beynəlxalq münasibətlər sistemində uzun illər dəyişməz kimi təqdim edilən status-kvo anlayışının nə qədər nisbi və dəyişkən xarakter daşıdığını da aydın şəkildə üzə çıxardı.

Birinci fəslin üçüncü yarımfəsli "**Sosial münaqişələrin tipləri və müasir yanaşmalar**" adlanır. Dissertasiyanın bu yarımfəslində qeyd olunur ki, müasir dünyada ənənəvi səbəblərdən törəyən münaqişələr ilə yanaşı, həm də tamamilə kənar səbəblərə bağlı münaqişələrin də meydana çıxdığını görmək mümkündür. Son illərdə bu formaya uyğun gələn münaqişələrin artdığı da bir həqiqətdir. Y.Qaltunqa görə günümüzdəki münaqişələri beş tipə ayırmaq olar: "*Geoiqtisadi münaqişələr – qlobal iqtisadi böhranlar. Geomilitar münaqişələr – NATO genişlənməsi. Geosiyasi münaqişələr – dövlət/millət tipli fikir ayrılıqları. Geomədəni münaqişələr – fərqli sivilizasiya və dəyərlər*

---

[85] Coser, L.A. The Functions of Social Conflict / A.L. Coser. New York: The Free Press, – 1956. – 196 p, – s.47.

[86] Dahrendorf, R. Class and Class Conflict in Industrial Society / R. Dahrendorf. – Stanford: Stanford University Press, – 1956. – 358 p, – s.224.

*sistemi arasında, məsələn, Xristian-Müsəlman fərqi. Avroregional münaqişələr – üçtərəfli Avropa və Almaniya*".[87]

Qlobal şərtlərin təsiri ilə çoxşaxəli xarakter alan münaqişələr, əvvəlki dövrlərdə ya müşahidə olunmayan, ya da diqqətdən kənarda qalan yeni formalarla cəmiyyətlərdə özünü göstərməyə başlamışdır. Qloballaşma prosesinin doğurduğu bu yeni tip qarşıdurmalardan biri də ekoloji münaqişələrdir. "*Ekoloji amillərin səbəb olduğu və ya təkan verdiyi münaqişələr də mövcuddur ki, bu mənada Darfurdakı münaqişə bəzən ilk "iqlim müharibəsi" də adlandırılır*". [88] Sudanın Darfur bölgəsində 26 fevral 2003-cü ildə başlayan və əsasən resurs çatışmazlığı, xüsusilə su və torpaq uğrunda rəqabətlə bağlı olan silahlı qarşıdurma, bir çox tədqiqatçılar tərəfindən ilk "iqlim müharibəsi" (climat war) kimi qiymətləndirilir. Bu hadisə, ekoloji münaqişələrin qlobal təhlükəsizlik üçün necə ciddi təhdidə çevrilə biləcəyini göstərən açıq nümunədir. Həmin münaqişənin nəticələri ölkədə vətəndaş müharibəsi mühitinin formalaşmasına təkan vermiş, Darfur hadisələri isə bu prosesin katalizatoru rolunu oynamışdır. Müasir dünyada bilavasitə və ya bilvasitə şəkildə qloballaşma ilə əlaqəli ekoloji böhranlar getdikcə daha çox cəmiyyətlərin gündəminə daxil olmaqda və sosial sabitliyi təhdid edən yeni münaqişə formalarına çevrilməkdədir. Cəmiyyətlər bu yeni tip münaqişələrə hazırlıqlı olmalı və qarşısının alınmasına yönəlik uzunmüddətli strategiyalar formalaşdırmalıdırlar.

Münaqişələrin ənənəvi formalarından biri də ideoloji münaqişələrdir. Müasir informasiya cəmiyyətlərində ideoloji xarakterli münaqişələr xeyli artmışdır. Dövrümüzün əsas ünsiyyət vasitəsi olan sosial şəbəkələr qeyd olunan münaqişələrin daha da yayılmasına öz təsirlərini göstərir. Müasir dünyanın qlobal şərtləri ənənəvi münaqişə formalarından birini yeni formada alovlandırmaq üçün əlverişli bir

---

[87] Galtung, J. Leaving the twentieth century, entering the twenty-first: some basic conflict formations // J. Galtung. Searching for peace the road to transcend. By Johan Galtung and Carl G. Jacobsen. – London: Pluto Press. – 2000. – pp. 51-65, – s.51-52.

[88] Levy, A. War on Earth? Junctures between Peace and the Environment // A. Levy, J.G.Vaillancourt, – Critical Issues in Peace and Conflict Studies Theory, Practice, and Pedagogy. Edited by Thomas Matyók Jessica Senehi Sean Byrne, Plymouth: Rowman & Littlefield Education, – 2011. – pp. 217-244, – s. 215.

səhnəyə çevrilmişdir. İdeoloji zəmində baş qaldıran münaqişələrin xüsusi olaraq tədqiqi də son dövrlərdə aktuallıq qazanan məsələlərdəndir. Münaqişə nəzəriyyəsi üzrə mütəxəssis B.Krozier yazır ki, "*müasir cəmiyyətlərdə ideologiya xüsusilə təhlükəli münaqişə mənbəyidir*".[89]

Dissertasiyanın "**Dialoq probleminin sosial-fəlsəfi təhlili**" adlanan ikinci fəsli üç bölmədən ibarətdir. "**Sosial münaqişələrin həllində dialoqun rolu**" adlı birinci yarımfəsildə qeyd olunur ki, konstruktiv düşüncə dialoq tərəfləri arasında neytral balansın və ya fikir ortaqlığının təmin edilməsini şərtləndirir. Müasir dövrdə "*dialoq, ortaq düşünmə və düşüncə yolu ilə ümumiortaq məna axtarışında, ümumi olan səyləri inkişaf etdirmə prosesidir*".[90] Bu məntiqdən çıxış etdikdə, dialoqlar zamanı əldə olunaraq, iştirak edən bütün tərəflərin maraqlarını ödəyən ümumi və ortaq mənaların əldə olunması, dialoqun uğurluluğunun ən əsas şərtidir.

D.Yankeloviç hesab edir ki, "*dialoq uğurlu münasibətlərin qurulması prosesidir*".[91] Günümüzdə formalaşmış sıx qarşılıqlı sosial, iqtisadi və siyasi bağları nəzərə aldıqda, cəmiyyətlər bir-birinə daha çox inteqrasiya olunmuş və üzvi əlaqələr qurmuşdur. Bu gün, bir-birilə əlaqəli cəmiyyətlər həm də dərin fəlsəfi mənada bir-birindən asılıdırlar. Müasir dünyada cəmiyyətlər qarşılıqlı əlaqədə olan strukturlar kimi mövcuddur. Bu qaçılmaz müasir gerçəklik sosial-fəlsəfi problem olan dialoq problemini bir qədər də aktual edir. Dialoq cəmiyyətlər arasında nizamın təmin edilməsi baxımdan xüsusi önəm kəsb edir.

Dünyanın çoxqütblü formatı və artan sosial çağırışları fonunda, dialoq hələ də problemlərin müzakirəsi və münaqişələrin effektiv həlli üçün ən təsirli üsullardan biri olaraq qalır. Y.Qaltunq yazır ki, "*dialoq daima soruşur və axtarır*".[92] Dialoqun fəlsəfi mahiyyəti mütəmadi olaraq

---

[89] Crozier, B. A theory of conflict / B. Crozier. – London: Hamish Hamilton. – 1974. – 245 p, – s.25.

[90] Jeong, H.W. Conflict Management and Resolution. An introduction / H.W. Jeong. – New York: Routledge, – 2010. – 256 p, – s.196.

[91] Yankelovich, D. The Magic of Dialogue: Transforming Conflict Into Cooperation / D. Yankelovich. – New York: Touchstone, – 2001. – 341 p, – s.15.

[92] Galtung, J. Transcend and Transform: An introduction to conflict work / J. Galtung. – London: Pluto Press. – 2004. – 197 p, – s.20.

gerçəkləşən sual-cavab dixatomiyasının ardıcıllığı və onlara verilən doğru cavablar məntiqinə bağlıdır. Dialoq daima verdiyi suallara münasib cavablar axtarmaq əsasında davam edən bir prosesdir. Münaqişə suallar doğuran, dialoq soruşan və cavab axtaran, konsensus isə, bu prosesin sonunda tapılan ən uyğun cavablardan biridir. İstənilən münaqişəni önləməyə çalışan və ya hər hansı bir problemin həllinə münasibətdə düzgün cavab, daima, öncədən qoyulan düzgün suallardan və bilavasitə onların məntiqindən asılı olaraq hasil olur. Bu mənada dialoq dolğun sualların müzakirəsi, bu qəbildən olan çətin suallara birgə və tərəfləri maksimum dərəcədə qane edəcək cavablar tapmaq prosesidir.

"**Mədəniyyətlərarası dialoq universal sosial-fəlsəfi fenomen kimi**" adlanan ikinci yarımfəsildə qeyd olunur ki, müasir dünyada münaqişələrin çoxçalarlılığını nəzərə aldıqda, mədəniyyətlər və sivilizasiyalararası dialoqlar da onların nizamlanmasında xüsusi əhəmiyyət kəsb edir. Bu qəbildən olan dialoqlar münaqişələrin daha əhatəli, ümumi və universal həll formalarıdır. Müasir qlobal dünyada kapitalizm münasibətləri və bazar iqtisadiyyatının hökm sürdüyü bir vəziyyətdə mədəniyyətin daha texnikiləşmiş və əsasən maddiləşmiş yönümlü şaxələnməsi olan sivilizasiyalar (bir qayda olaraq texnogen mahiyyətli) ön plana keçməkdədir. Bugünkü cəmiyyətlərin qlobal inkişaf xüsusiyyətlərini nəzərə aldıqda, daha çox sivilizasiyalararası dialoqlardan danışmaq mümkündür. Lakin bu yanaşma ilə yanaşı, sivilizasiyaları da özündə ehtiva edən və əsasən qeyri-maddi, mənəvi dəyərlər üzərində qurulmuş mədəniyyətlərarası dialoq da mühüm əhəmiyyət daşıyır.

Y.Qaltunq yazır ki, "*mədəniyyətlərin debatı bir problem olaraq və/ya da formatına əsaslanır. Daha plüralist cəmiyyətlər isə, insani müxtəlifliklərin sosial müxtəliflikdə əks olunması naminə dialoq mədəniyyətində və/həm də düsturundan istifadə etməlidirlər*".[93] Müasir reallıqlarda ciddi fəlsəfi problem olan dialoq və onun gerçəkləşmə mədəniyyətində "və/ya" yanaşması ayırıcı olduğu kimi, "və/həm" yanaşması isə, birləşdirici, vəhdətyaradıcı yanaşmadır. Cəmiyyətlərdəki mütləq sosial müxtəliflikləri nəzərə aldıqda, dialoq mədəniyyətinin hamı üçün eyni dərəcədə keçərli olduğunu söyləmək çətindir. Bu

---

[93] Yenə orada, – s.61-62.

baxımdan, cəmiyyətlər arasında dayanıqlı münasibətlərin qurulması məqsədilə, daha universal yanaşma, "ya" deyil, "həm" prinsipinə əsaslanmalıdır. Çünki, "ya" yanaşması dialoqun məntiqi sonluğa çatmasına mane ola bilər, halbuki "həm" yanaşması dialoqun bərabərhüquqlu və konsensusa əsaslananacaq bir məcraya yönəlməsini mümkün edir. Bu yanaşma artıq seçim olmaqdan daha çox zərurətə çevrilmişdir. Dialoqlar bərabərhüquqlu olduqları təqdirdə sosial münaqişələrin həllində də səmərəlidirlər. Sivilizasiyalararası dialoqlar müasir dövrün sosial-fəlsəfi problemlərindən biri kimi geniş tədqiq olunsa da, bu tip dialoqların daima müxtəlif tarixi dönəmlərdə baş verdiyini görürük. Bəşər münaqişələrə həris olduğu qədər, daima dialoqlara da eyni dərəcədə ehtiyac duyub. "*Yerli sivilizasiyaların dialoqu və əməkdaşlığı yeni bir fenomen deyil. Bu fenomen sivilizasiyaların özləri qədər mövcuddur. Dövrdən dövrə, bir dünya sivilizasiyasından digərinə dəyişərək davam etməkdədir*".[94]

"**Müasir dünyanın dialoq platformaları: siyasi, iqtisadi və dini aspektlərə fəlsəfi yanaşma**" adlanan üçüncü yarımfəsildə qeyd olunur ki, müasir dünyada dialoq təkcə qarşılıqlı anlaşma vasitəsi deyil, həm də qlobal proseslərin idarə olunmasında əsas mexanizmlərdəndir. Dövlətlər arasında fərqli maraqların mövcud olduğu şəraitdə dialoqlar siyasi, iqtisadi və dini çalarları ilə ön plana çıxır. Onlar həm münaqişələrin qarşısının alınmasında, həm də konsensusların formalaşdırılmasında mühüm rol oynayırlar. Dialoqlar qarşılıqlı güzəşt mədəniyyəti və cəmiyyətlərdə siyasi nizamın təmin olunmasında xüsusi əhəmiyyətə malikdir. Bu məziyyətindən irəli gələrək dialoqların davamlı olması əsas şərtlərdən biridir.

Siyasi sahədə dialoq əməkdaşlığın möhkəmləndirilməsi, stabil mühitin yaradılması, tolerantlıq prinsiplərinin qorunması baxımından fundamental əhəmiyyət kəsb edir. "*Siyasi bir müzakirə olaraq dialoq..., yeni imkanlara yol aça, mövqe fərqlilikləri ifadə və aktiv reaksiya doğuran alternativlər təqdim edə bilər*".[95] Yəni siyasi müstəvidə başa

---

[94] Кузык, Б.Н., Цивилизации: теория, история, диалог, будущее / Б.Н. Кузык, Ю.В. Яковец. // Будущее цивилизаций и геоцивилизационные измерения. – Москва: Институт экономических стратегий, Т.II. – 2006. – 627 с, – s.99.

[95] Frank, J.W. Nonprofits Advancing Public Dialogue about a "Culture of Peace" // J.W. Frank. – Conflict Resolution and Peace Education. Transformations across

düşüldükdə, dialoqun ən əsas vəzifəsi də məhz bunlardan ibarətdir. Siyasətdə daima fərqli baxış bucaqları və alternativ mövqelərin olması önəmlidir. Siyasi dialoq bütün növbəti proseslərin uğurlu tamamlanması üçün katalizator rolunda çıxış edən və münaqişə tərəflərini fikir mübadiləsinə sövq edən keçid bir mərhələdir.

Müasir dünyada qarşılıqlı dialoqların təşkilinin mütləq olduğu müstəvilərdən biri də din müstəvisidir. Qloballaşmanın təsiri ilə dünyada dini düşüncə daha sekulyar olsa da, din hələ də cəmiyyətlərdə dərin münaqişələrə səbəb olan əsas faktorlardan biridir. Dini münaqişələr təsirlərinə görə tarixən daha güclü olmuş və bəzən iştirakçılarının amansız rəftarı ilə də müşayiət olunmuşdur. Bu münaqişələrin fərqli cəhətlərindən biri də, konsensus əsasında həllinin digər münaqişə formaları ilə müqayisədə daha uzun müddət almasıdır. Uzun illər dini düşüncənin həssaslığından sui-istifadə edilərək cəmiyyətlər münaqişələrə sövq edilmişdir. Bəzi dünya dövlətlərində (Hindistan, Efiopiya) bu problem hələ də ölkə daxilində təhlükəli məsələlərdən biri kimi qalmaqdadır. Dinlərarası dialoqlar, müasir dünyada din motivli münaqişələrin tənzimlənmə mexanizmlərinin işlənməsi baxımından önəmli bir platforma olaraq qalmaqdadır. "*Dini münaqişələrin həllinə yönəli dialoqlarda bağışlanma, həqiqətə sədaqət, şəxsi məsuliyyət, sevgi, səbir, ədalət, şəfqət, mərhəmət kimi ümumi dəyərlərdən çıxış etmək vacibdir*".[96]

Dissertasiyanın üçüncü fəsli "**Konsensus - münaqişə və dialoq proseslərinin fəlsəfi nəticəsi kimi**" adlanan üçüncü fəsli üç bölmədən ibarətdir. "**Konsensus anlayışının sosial-fəlsəfi mahiyyəti**" adlanan birinci yarımfəsildə qeyd olunur ki, sosial-fəlsəfi kontekstdə konsensus münaqişə və ya ziddiyyətlərin dialoq əsasında razılaşdırılmış həlli kimi dəyərləndirilir. Konsensus anlayışı əvvəlki dövrlərdə nisbətən sabit və dəyişməz görünə bilsə də, qloballaşan dünyada bu yanaşma artıq yetərli deyil. Səbəblərdən biri odur ki, cəmiyyətlərdə konsensusa olan ehtiyac

---

Disciplines. Edited by Candice C.Carter. – New York: Palgrave Macmillan. – 2010. – pp. 63-95, – s.67.

[96] Kadayifci-Orellana, S.A. Ethno-religious conflicts: Exploring the role of religion in conflict resolution // S.A. Kadayifci-Orellana.The SAGE handbook of conflict resolution. Edited by Jacob Bercovitch, Victor Kremenyuk, and I. William Zartman. – London: SAGE Publications Ltd. – 2009. – pp.264-284, – s.276.

durmadan artır. Eyni zamanda, konsensusun tətbiq olunduğu sahələrin – mədəni, sosial, siyasi, iqtisadi və hətta kiber müstəvilərin əhatə dairəsi də genişlənmişdir. Müasir dünyanın çoxqütblü strukturu fərqli sahələrdə konsensusların əldə olunmasını tələb edir. Əks halda, müasir dünyada mövcud bütün sahələrdə nizam və qanunauyğunluqların təmin olunması və vacib olan məqam kimi müasir cəmiyyətlərin funksionallığı öz səmərəsini itirmiş olar. Daxilində davamlı konsensusların əldə olunması çətin olan cəmiyyətlər isə müasir dünyanın inkişaf ritmindən kənarda qalma təhlükəsilə üzləşirlər. Qeyd edilən nizamı itirmiş və ya cəmiyyətdaxili qanunauyğunluqlardan məhrum olmuş cəmiyyətlərin daha sürətli şəkildə xaosa qərq olması da qaçılmazdır. Daxili siyasi çəkişmə və vətəndaş müharibələrinin davam etdiyi ölkələr qeyd edilən problemdən ciddi əziyyət çəkməkdədirlər. Bəzi hallarda, siyasi və sosial aktorların həll edə bilmədikləri məsələlərdə iqtisadi arqumentlər daha inandırıcı və təsiredici olur. Qlobal dünyada davamlı "*konsensusa nail olmaq üçün iki məsələ önəmlidir ki, bunlar da qəti mövqelərdən əl çəkmək və çeviklik nümayiş etdirməkdir*". [97] Müasir dünyada isə konsensus dialoqlar vasitəsilə məqsədyönlülük qazanan bir nizam formasıdır. Baş vermiş sosial münaqişələrin aradan qaldırılması, gerçəkləşmək ehtimalı olan münaqişələrə qarşı isə etibarlı sosial balansdır. Günümüzdə konsensus müəyyən xaosdan çıxaraq qazanılan harmoniya üsullarından biridir. Konsensus, cəmiyyətlərdə sosial tənzimləmənin ən səmərəli və effektiv metodlarından biri kimi çıxış edir. Cəmiyyətdəki istənilən sahədə əldə olunan konsensus cəmiyyətin bütün digər sahələrində də sosial münaqişələrin neytrallaşdırılmasını təmin etməklə ümumi səmərəli nəticələrə gətirib çıxarır.

"**Dayanıqlı konsensus modelləri: fəlsəfi yanaşmalar**" adlı ikinci yarımfəsildə qeyd olunur ki, davamlı olaraq sosial münaqişələrin baş qaldırdığı müasir cəmiyyətlərdə sosial, siyasi, iqtisadi və mənəvi sahələrində qalıcı konsensusların inşası mühüm əhəmiyyət daşıyır. İstənilən cəmiyyətdə qeyd olunan əsas sahələrin hər birinə xas özəllikləri nəzərə aldıqda, onların haşiyəsində formalaşdırılan

---

[97] Day, C. Consensus Design: Socially inclusive process / C. Day, R. Parnell. – Burlington: Architectural Press, – 2003. – 241 p, – s.20.

konsensuslar ilk öncə təşkil olunan dialoqların məhsuldarlığından da əhəmiyyətli dərəcədə asılıdır. "*Konsensus demək olar ki, həmişə mümkündür. Əksər hallarda bir qrup insan hər hansı qərar üzərində konsensusa gələ bilmək iqtidarındadır*".[98]

Fəlsəfi mənada, konsensus məsuliyyəti böyük olan ümumi bir qərardır. Ona görə də, onun əldə olunması üçün müxtəlif variantların və modellərin çoxluğu vacibdir. Çünki yekdil qərar mümkün qədər çoxluğun maraqlarını ehtiva etməlidir. Konsensusun qarşı tərəflərin maraqlarını əhatə etdiyindən, seçim üçün irəli sürülən nümunələrin kəmiyyəti də vacibdir. Konsensus qismində qəbul olunan qərarın keyfiyyəti, təkliflərin kəmiyyətindən də asılıdır. Məntiqi olaraq konsensus bilavasitə seçim imkanı daha çox olan situasiyalarda faydalı olur. Konsensusun effektivliyini təmin edən bu məqam, həm də onu sosial-fəlsəfi problem olaraq mahiyyəti etibarı ilə ümumi mənşəli edir. Konstruktiv dialoqlardan keçərək, əsaslı tərtib olunmuş konsensusa qarşı olan tərəf say etibarı ilə azlıq təşkil etdiyindən "*konsensus çoxluğa etiraz edənlərin öz etirazlarını ictimailəşdirməkdən çəkinmələri də deməkdir*".[99] Çoxluğun fikrini translasiya edən konstruktiv dialoqlar da münaqişələri həll etmək, konsensusun əsasını qoymaq, onu möhkəmləndirmək və daha sonra tənzimləmək üçündür. Miqyasından asılı olmadan konsensus məsələsində çoxluq amili həlledici olduğundan bütün cəmiyyətin sahələri, xüsusilə də siyasi qərarların qəbulunda onun nəzərdən qaçırılmaması zəruridir.

"**Sülh fəlsəfəsi konsensusun təzahür forması kimi**" adlı sonuncu yarımfəsildə qeyd olunur ki, məntiqi şəkildə bir-birini tamamlayan münaqişə, dialoq və konsensus problemlərinin vəhdəti və kəsişərək birləşdiyi ortaq nöqtə sülhdür. Hər üç məsələni başladan və bitirən ümumi fəlsəfi yol sülhdə tamamlanmaqdadır. Sülh bütün cəmiyyətlərdə hədəflənən və bilavasitə davamlı inkişafı təmin edən

---

[98] Straus, D. How to make collaboration work: Powerful ways to build consensus, solve problems, and make decisions / D. Straus. – San Francisco: Berrett-Koehler Publishers, Inc. – 2002. – 245 p, – s.59.

[99] Tonkinson, R. Resolving Conflict Within the Law: The Mardu Aborigines of Australia // Keeping the peace: Conflict resolution and peaceful societies around the world. Edited by Graham Kemp and Douglas P. Fry. – New York: Routledge. – 2004. – pp.73-86, – s.78.

yekun qayədir. Cəmiyyətin sosial, siyasi, iqtisadi və mənəvi sahələrində əldə edilən çoxsaylı konsensuslarının ən üstün forması, onların geniş miqyasda, ümumivəhdətdə və praktiki olaraq reallaşması sülhdür. Y.Qaltunq hesab edir ki, "*sülh tərəflər arasındakı münaqişənin transformasiyasından asılıdır. Sülhün əksi olan zorakılıq isə, transformasiya olunmamış münaqişənin nəticəsi kimi qiymətləndirilir*".[100]

Sosial-fəlsəfi planda sülh fərqli platformalarda qazanılan çoxsaylı konsensusların toplusudur. Sülh gerçəkləşmiş konsensuslar vasitəsilə təşviq edilən hadisədir. Problemin fəlsəfi özəlliyi ondadır ki, sülh daha geniş miqyasda qeyd olunan konsensusların həm də qarantıdır. Bu anlamda konsensus və daha geniş mənada sülhün əldə olunması "aləti" kimi dialoq metodunun əvəzsizliyi özünü bir daha göstərmiş olur.

Müasir dövrdə yeni, iqlim əsaslı münaqişələrin intensivləşdiyi nəzərə aldıqda sülhün planetar miqyas alması da zərurətə çevrilmiş olur. Buna bariz nümunə olaraq, 11-22 noyabr 2024-cü ildə Azərbaycanda keçirilən COP 29 çərçivəsində "Paris Sazişi"nin 6-cı maddəsi üzrə əldə edilən konsensus, qlobal ekoloji təhlükəsizliyi gücləndirərək bəşəriyyəti sülhə aparan mühüm addımlardan biri kimi çıxış edir. Azərbaycan Respublikasının bu konsensusu dəstəkləməsi ekoloji sahədə diplomatiyanın gücləndirilməsi və sülh naminə qlobal həmrəyliyə töhfədir.

Sülh bəşərin əsas dəyərlərindən biri olan və bəşəri bilavasitə bəşər edən rasionallığın pozulması nəticəsində baş qaldıran şiddət üzərində qələbədir. "*Sülh münaqişənin yaradıcı transformasiyasıdır*". [101] Münaqişə vəziyyətində olan hər hansı bir cəmiyyətin münaqişəni obyektiv olaraq qiymətləndirməsi və ya onun səbəblərini aydın şəkildə başa düşməsi olduqca vacibdir. Münaqişənin gələcək perspektivinin ölçülməsi və öncədən təhlil edilməsi bu cəhətdən böyük əhəmiyyətə malikdir. Məhz bu halda münaqişənin

---

[100] Galtung, J. Peace by peaceful conflict transformation – the transcend approach // Handbook of Peace and Conflict Studies Edited by Charles Webel and Johan Galtung. – New York: – Routedge. – 2007. – pp. 14-32, – s.14.

[101] Galtung, J. Peace by peaceful means: Peace and conflict, development and civilization / J. Galtung. – Oslo: International Peace Research Institute. – 1996. – 289 p, – s.9.

sonrakı nəticələrini sərf-nəzər etmək və onu sülh mərhələsinə keçirmək mümkün olur. Məsələyə fəlsəfi cəhətdən yanaşdıqda, adekvat dialoq, gələcək konsensus və əldə olunacaq sülh həm də münaqişənin obyektiv dərki və analizi ilə düz mütənasiblik təşkil etməkdədir. Məsələn, Ermənistan cəmiyyətində hələ də davam edən revanşist düşüncələr və onların ilk növbədə öz cəmiyyətlərinə gətirdiyi destruktiv nəticələr deyilənlərin birbaşa sübutdur.

Dissertasiyanın "**Nəticə**" hissəsində tədqiqatın fəsillərində əldə edilmiş elmi-nəzəri müddəalar ümumiləşdirilmişdir.

Dissertasiyadan belə nəticəyə gəlmək olar ki, münaqişə, dialoq və konsensus – tarixin bütün dövrlərində olduğu kimi – müasir dövrdə də cəmiyyətlərin ayrılmaz tərkib hissəsidir. Bu üç fəlsəfi fenomenin bir-birini mütəmadi şəkildə əvəz etmədiyi bir şəraitdə müasir cəmiyyətlərin inkişafını təsəvvür etmək çətindir. Xüsusilə XXI əsrdə baş verən qlobal miqyaslı sosial, siyasi və iqtisadi transformasiyalar bu üç anlayışın qarşılıqlı şəkildə və dövri olaraq təkrarlanmasını qaçılmaz edir. Münaqişə, dialoq və konsensusun aktuallığı isə bir-birinin mövcudluğu və davamlılığı ilə birbaşa bağlıdır.

Dövrümüzdə sosial fəlsəfənin əksər problemlərində olduğu kimi, bilavasitə tədqiqatın mövzusunu təşkil edən problemlərin mahiyyətlərində də müəyyən dəyişikliklərin baş verdiyini müşahidə etmək mümkündür. Nəticə etibarı ilə dissertasiyada münaqişə, dialoq və konsensus problemi kəsb etdiyi ənənəvi, eləcə də günümüzün formalaşan müasir reallıqlarına uyğun qazandıqları yeni fəlsəfi məna çalarları əsasında tədqiq edilir. Tədqiqatda XXI əsrin dəyişən dünya nizamında bu sosial-fəlsəfi problemlərə fərqli müstəvidən yanaşmağın müəyyən mənada zərurətə çevrildiyi əsaslandırılır. Tədqiq edilən problemlərin müasirlik aspektində, sosial fəlsəfədəki yeni baxış bucaqları əsasında təhlili, münaqişə, dialoq və konsensus haqqında fərqli baxış bucağı formalaşdırır. Günümüzün dinamik olaraq yenilənən şərtləri universal xarakterilə səciyyələnən dəyərlərə qarşı alternativ konsepsiyaların irəli sürülməsini zəruri edir. Tədqiqat zamanı müasir dünyanın dialektik strukturunun mürəkkəb tendensiyaya malik olması müəyyən edilir. Ümumilikdə onun inkişafında sosial münaqişələrin baş verməsinin bir zərurət kimi çıxış etməsi fəlsəfi cəhətdən əsaslandırılır. Araşdırma təsdiq edir ki, münaqişə dialektik bir problem kimi dünyanın

dinamik inkişaf sisteminə sirayət edərək onun ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Qaçılmaz sosial reallıq olan münaqişə cəmiyyətlərin mütəhərrikliyinə bilvasitə təsir edən mühüm fenomen kimi özünü göstərməkdədir. Cəmiyyətin inkişafı ilə ahəng təşkil edən münaqişələrin bu mütənasibliyi pozduğu halda onların həlli və ya nizamlanması bir çox obyektiv və subyektiv amillərdən asılıdır. Münaqişələrin həllində liderlərin də rolu əvəzsizdir. Azərbaycanın son 30 illik təcrübəsi sübut edir ki, münaqişə, ziddiyyət və qarşıdurmaların həllində dialoq fəlsəfəsi və konsensus seçiminin rolu əvəzsizdir. Xüsusilə ölkə Prezidenti İlham Əliyevin liderliyində aparılan siyasət, Azərbaycanın postmünaqişə mərhələsində sülh quruculuğuna verdiyi töhfə ilə fərqlənir. Azərbaycanın dövlət siyasətində dialoq və konsensusun əsas metodoloji yanaşma kimi qəbul olunması, münaqişələrin transformasiyası baxımından regional sabitliyin formalaşmasına xidmət edir. Beləliklə, liderlik və sülh fəlsəfəsi arasında birbaşa əlaqə qurularaq, münaqişələrin həllində davamlı və dərin təsir göstərən strateji yol xəritəsi ortaya qoyulmuş olur.

## DİSSERTASİYANIN MƏZMUNUNU ƏHATƏ EDƏN AŞAĞIDAKI TEZİS VƏ MƏQALƏLƏR NƏŞR OLUNMUŞDUR:


1. Müasir Azərbaycanda konfliktologiya elminin tədqiqi və tədrisi problemləri // – Azərbaycan inkişaf etmiş cəmiyyətə doğru: reallıqlar, perspektivlər. Gənc tədqiqatçıların 2 fevral-Gənclər Gününə həsr edilmiş ümumrespublika elmi-praktik konfrans materialları, – Bakı: Azərbaycan Universitetinin nəşriyyatı, – 2011, – s.202-203.
2. Etnik münaqişələrin həllində multikulturalizm amili // Multikulturalizm və insan haqları” mövzusunda İnsan hüquqları üzrə ümumi Bəyannamənin qəbul edilməsinin ildönümünə həsr edilmiş beynəlxalq elmi konfrans materialları, – Bakı: Nurlar, – 10 dekabr, – 2016, – s.213-216.
3. Maraqlar sosial konfliktlərin yaranmasının əsas səbəbi kimi // Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin Elmi Məcmuəsi.

Bakı: İyun (Haziran), – 2016. №25, – s.279-288.

4. Münaqişələr və onların tənzimlənməsində sülh amili // – Bakı: “Elm və innovativ texnologiyalar” Beynəlxalq Elmi Araşdırmalar Jurnalı, – 2018, №3. – s.91-101.
5. İctimai inkişaf prosesində münaqişə amili // Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş “Qafqazda dövlətlərarası münasibətlər:100 il əvvəl və müasir dövr” mövzusunda keçirilən beynəlxalq elmi konfrans materialları. – Bakı: AMEA Qafqazşünaslıq İnstitu, – 23-24 may, – 2018. – s.101-106.
6. Şirvanşahlar və müasir Azərbaycan dövlətində münaqişə amilinə baxış (müqayisəli təhlil) // “Müasir Azərbaycandan tarixi Şirvanşahlar dövlətinə səyahət” mövzusunda Gənc alimlər Forumu beynəlxalq konfrans materialları, – Bakı: – 23-24 oktyabr, – 2018, – s.129-135.
7. Münaqişə amilinə multidisiplinar yanaşma // “Elm tarixi və elmşünaslıq:fənlərarası tədqiqatlar” mövzusunda I beynəlxalq elmi konfransın materialları, – Bakı: – 29-30 oktyabr, – 2018. – s.114-121.
8. Münaqişə anlayışının fəlsəfi mahiyyəti // Müasir məntiq elminin formalaşmasının fəlsəfi-nəzəri və konseptual əsasları [1-ci kitab], – Bakı: AMEA, Fəlsəfə İnstitutu, Məntiq şöbəsi, –2018, – s.199-204.
9. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq aləmdə // Qafqazşünasların II Beynəlxalq Forumunun elmi məruzələri, – Bakı: AMEA, Qafqazşünaslıq İnstitutu, – 23-24 may, – 2019, – s. 239-243.
10. Dialoq və konsensus fəlsəfi problem kimi // Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası II Beynəlxalq Elmi konfrans Məruzələrin tezisləri, – Bakı: Mütərcim, – 6-8 may, – 2019, – s.100-101.
11. Sülh anlayışı: tarixi və müasir yanaşma // – Bakı: AMEA Fəlsəfə İnstitutu “Elmi Əsərlər” beynəlxalq elmi-nəzəri jurnal, – 2019.

Евразийском пространстве. Сборник статей по материалам Международной научно-практической конференции. – Уфа: Инеш, – 13-14 декабря, – 2019, – с.231-238.
13. Etnik münaqişələrin yaranmasında "Etnos" və "Millət" anlayışlarının təhlili // "Fundamental və tətbiqi elmlərin müasir problemlərinin həllində multidissiplinar yanaşma" mövzusunda Gənc alim və Mütəxəssislərin ikinci beynəlxalq Elmi konfransının materialları, – Bakı: – 03-06 mart, – 2020, – s.409-410.
14. Soyqırım anlayışına sosial-fəlsəfi yanaşma // – Bakı: Geostrategiya beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, – 2020. – Sentyabr-oktyabr, № 05/06(59/60), – s.139-144.
15. Postmünaqişə mərhələsində Cənubi Qafqazda regional əməkdaşlığın siyasi-etik aspekti // – Bakı: "Sivilizasiya" jurnalı, – 2021. Cild 10, № 3(48), – s.6-15.
16. Dövlətdaxili siyasətdə sabitlik, inkişaf və sülhün // The XXVII İnternational Scientific Symposium "Yol ver türkün nayrağına" dedicated to the 130th anniversary of Ahmad Javad, – Stockholm, Sweden, – 25 June, – 2022, – s.211-214.
17. Philosophical understanding of social conflicts // 5. Başkent İnternational Conference on Multidisciplinary Studies Proceeding book, – Ankara, Türkiyə, – 21-22 December, – 2023, – s.39.
18. Ümumilli lider Heydər Əliyev və müasir Azərbaycan gəncliyi // Ümumilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyine həsr olunmuş "Heydər Əliyev və müasir türk dünyası" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı, – 02 may, – 2023, – s.715-720.
19. The sociophilosophical nature of the dialogue problem // ПЕРСПЕКТИВИ. Соціально-політичний журнал, Науковий журнал, – України: ISSN 2310-2896, №4. – 2023. – с.70-79.
20. Dialoq anlayışının fəlsəfi dərkinin xarakterik xüsusiyyətləri // AMEA, Sosial Elmlər jurnalı, – Bakı: "Elm", – 2024, – s.272-280.
21. The Consensus problem: social and philosophical foundations // – Riga, Latvia: Baltic Journal of Legal and Social Sciences, "Baltija Publishing", – 2025. №2, – pp. 113-121.

Dissertasiyanın müdafiəsi 31 oktyabr 2025-ci il tarixində saat 11:00 -da Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun nəzdində fəaliyyət göstərən FD 1.33 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1143. Bakı şəhəri, Hüseyn Cavid prospekti 115, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu, IX mərtəbə, konfrans zalı

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutunun rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 01 oktyabr 2025-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.09.2025

Kağızın formatı: A5

Həcm: 44269

Tiraj: 100